COP29
Baku
Azerbaijan

**2024-cü ildə**

**BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası- COP29 Azərbaycanda keçiriləcək**

**2024-cü il**

**“Yaşıl Dünya naminə Həmrəylik İli” elan edilib**

**COP29 sağlam həyat üçün həmrəylik təşəbbüsüdür!**

**Buklet İqlim Dəyişmələri üzrə Dövlət Komissiyasının İşçi Qrupun Fəaliyyət Planının “İqlim dəyişmələri ilə bağlı məlumatlandırma və maarifləndirmə üzrə təbliğat işlərinin davam etdirilməsi” bəndinə əsasən Respublika Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən hazırlanmış və çap edilmişdir.**

**Bakı - 2024**



# İQLİM DƏYİŞİKLİYİ

*Təbiəti qoruyun, gələcəyi daha da təhlükəsiz edin!*



*Planetimiz üçün ən böyük təhlükə onu başqasının xilas edəcəyinə inamdır.*

RGEM
“Respublika Gigiyena və Epidemiologiya Mərkəzi” PHŞ
www.rgem.az

## İqlim dəyişikliyi

*BU GÜN DÜNYANI NARAHAT EDƏN QLOBAL PROBLEMLƏRDƏN BİRİ DƏ İQLİM DƏYİŞMƏLƏRİDİR.*

*ÖLKƏMİZ QLOBAL İQLİM DƏYİŞİKLİYİNİN TƏSİRİNDƏN KƏNARDA QALMAMIŞDIR. AZƏRBAYCANDA KƏND TƏSƏRRÜFATI, SU EHTİYATLARI, ENERJİ, MEŞƏ TƏSƏRRÜFATI, TURİZM, SƏHİYYƏ SAHƏLƏRİ İQLİM DƏYİŞİKLİYİNƏ DAHA HƏSSASDIR.*

**İqlim dəyişikliyi iqlimlə bağlı infeksion xəstəliklərin sayının və gedişatının artması, ekstremal hava hadisələrinin (daşqınlar, qasırğalar, isti və soyuq hava kütləri), həddindən artıq ölüm və xəstəliklərin artması kimi özünü göstərir.**







## İqlim dəyişikliyi



**Azərbaycan məhdud su ehtiyatlarına malik olan, əsas hissəsi transsərhəd çaylardan asılı olan ölkədir və ölkə daxilindəki şirin su ehtiyatlarının 90 faizini Böyük və Kiçik Qafqaz dağları təşkil edir.**





Sağlam həyat ətraf mühitin qorunması ilə başlayır.
Sabah üçün bu günü qoru!



“Yaşıl” iqtisadiyyata keçid və “Yaşıl” enerji təchizatçısına çevrilmək Azərbaycanın iqtisadi siyasətinin prioritetlərindəndir.



Təkrar emal ətraf mühiti təmizləyir, təbii ehtiyatlara qənaət edir, enerji istehlakını azaldır və iqtisadiyyatı gücləndirir.



Əlverişsiz mikroiqlim şəraitində açıq havada işləyənlər susuzluq, böyrək və beyin funksiyalarının zəifləməsi, yorğunluq, başgicəllənmə, çaşqınlıq və müvazinətin itirilməsi ilə qarşılaşa bilərlər.



İsti dalğalar soyuq dalğalara nisbətən ölüm hallarının daha çox artmasına səbəb olur. Ən yüksək temperatura malik istilik adaları hündür binaların sıx olduğu, avtomobillərin toplandığı və yaşıllıqların olmadığı meqapolislərin mərkəzlərində baş verir.

İqlim dəyişikliyi mədə-bağırsaq xəstəliklərinin artmasına səbəb olur.

İqlim dəyişikliyi dünyanın bir çox ölkəsində bakterial infeksiyaların artması ilə əlaqələndirilir. Bir çox yoluxucu və parazitar xəstəliklərin törədiciləri daha yüksək temperaturda, xüsusilə yüksək rütubət və ya güclü yağış zamanı dəfələrlə aktivləşir.

Suyun çirklənməsi nəticəsində yaranan ishalın əsas səbəblərinə vəba, kriptosporidium, lyamblioz, şigellyoz, qarın yatalağı, hepatit A kimi epidemiyalar daxildir və bu epidemiyalar güclü yağışlar zamanı baş verir. Təbii epidemiya ocaqlarında xəstəliyin mənbəyi ilə daşıyıcı arasında əlaqə yaranır.

## İqlim amilləri və əhalinin həssas qrupları



Əhalinin yaş həddi hava və iqlim təsirlərinə qarşı həssaslığa əhəmiyyətli dərəcədə təsir göstərir. Yaşlılar (65 yaş və yuxarı) – şəkərli diabet, ürək-damar və ya tənəffüs yolları xəstəlikləri olan insanlar iqlim dəyişikliyi və ekstremal hava hadisələri ilə bağlı sağlamlıq təsirlərinə, o cümlədən çirklənmiş içməli su ilə yoluxma riskinin artması, termore-qulyasiyanın pozulması, susuzluğa və xroniki xəstəliklərə qarşı cavanlarla müqayisədə daha həssasdırlar.

Həddindən artıq istilər zamanı böyrək çatışmazlığı, sidik yollarının infeksiyaları, gün vurma və istidən xəsarət alanların xəstəxanaya hospitalizə edilmə sayının artması halları müşahidə olunur.

Həddindən artıq yüksək və aşağı temperaturlarla bağlı sağlamlıq nəticələri əsasən sosial-iqtisadi, peşə və digər qeyri-iqlim göstəricilərindən asılıdır.



Risk qruplarına aid olan əhali (ahıllar, xroniki xəstəlikləri olan və dayaq-hərəkət məhdudiyyətli insanlar, qadınlar, uşaqlar və s.) xüsusilə təhlükə altındadırlar, onlar temperaturun, rütubətin, küləyin və insanın fiziki və psixi sağlamlığına mənfi təsir göstərən digər amillərin əhəmiyyətli dəyişikliklərinin təsirlərinə daha həssasdırlar.

Həddindən artıq yüksək temperatur qlobal sağlamlıq üçün risk faktoru kimi hesab edilir.





İqlimlə bağlı sağlamlıq riskləri ən yüksək istixana qazı emissiyalarının yerləşdiyi sahələrdən, sənaye və energetikanın inkişafından, müxtəlif ərazilərin və əhali qruplarının həssaslığının diferensiallaşdırılmasından, xüsusilə də sel və quraqlıq kimi ekstremal hadisələrin və bu kimi şərtlərin təsiri ilə əlaqədar olaraq artacaq.







